# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği”nin təsdiq edilməsi haqqında**

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 467-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1268 nömrəli Fərmanının 1.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərinə şamil edilir.
3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.
4. Bu Qərar dərc edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 25 iyun 2023-cü il

№ 213

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 213 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği

| Sıra №-si | İnzibati ərazi vahidi | Zona | 1 saat üçün ödənişin məbləği (manatla, ƏDV daxil) |
|---|---|---|---|
| 1. | **Bakı şəhəri** (“İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla) | Mərkəz | 1,00 |
| | | I | 0,70 |
| | | II | 0,40 |
| | | III | 0,30 |
| | | IV | ödənişsiz |
| 2. | **Sumqayıt şəhəri** | Mərkəz | 0,40 |
| | | I | 0,20 |
| | | II | ödənişsiz |
| 3. | **Gəncə şəhəri** | Mərkəz | 0,40 |
| | | I | 0,20 |
| | | II | ödənişsiz |
| 4. | **Digər** | | ödənişsiz |

**Qeydlər:**

1. Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği əlavədə nəzərdə tutulan zonalara uyğun olaraq müəyyən edilir.

2. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 53-cü maddəsinin XV hissəsinə əsasən, ödənişli parklanma

yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmur. Nəqliyyat vasitəsi 15 dəqiqədən artıq parklandıqda ödəniş tam məbləğdə hesablanır.

3. Nəqliyyat vasitələrinin parklanması üçün saat 22:00-dan saat 07:00-dək, eləcə də həftənin bazar günləri ödəniş tələb olunmur.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fərdi parklanma talonlarının forması, habelə onların verilməsi Qaydası”na uyğun olaraq fərdi parklanma talonu verilmiş şəxslər nəqliyyat vasitələrini yalnız talonda göstərilən parklanma ərazisində müəyyən olunmuş yerlərdə ödənişsiz əsaslarla saxlayırlar.

“Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği”nin müəyyən edilməsi üçün zonalar

**əlavə**

## 1. Bakı şəhəri üzrə zonalar

### 1.1. Mərkəz zonası

Bu zona Neftçilər prospekti, şərq istiqamətində Yusif Səfərov küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən şimal istiqamətində Yusif Səfərov küçəsinin Mehdi Mehdizadə küçəsi ilə kəsişməsinədək (həmin hissə istisna olmaqla), həmin kəsişmədən qərb istiqamətində 28 May küçəsinin Kövkəb Səfərəliyeva küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Kövkəb Səfərəliyeva küçəsinin Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək (həmin hissə istisna olmaqla), həmin kəsişmədən qərb istiqamətində Dilarə Əliyeva küçəsinin Azadlıq prospekti ilə kəsişməsinədək, şimal istiqamətində Azadlıq prospektinin Füzuli küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Abdulla Şaiq küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən cənub-şərq istiqamətində Mirzəağa Əliyev küçəsinin Azərbaycan prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Azərbaycan prospektinin İstiqlaliyyət küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən İstiqlaliyyət küçəsi ilə cənub-qərb istiqamətində Lermontov küçəsi ilə davam edərək cənub istiqamətində Ziya Yusifzadə küçəsi ilə birləşərək, Ziya Yusifzadə küçəsinin Neftçi Qurban küçəsi ilə kəsişməsindən Neftçi Qurban küçəsinin Sara Qədimova küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Neftçi Qurban küçəsinin Dənizkənarı küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Neftçilər prospekti ilə kəsişməsinədək olan ərazini əhatə edir.

### 1.2. I zona

1.2.1. Bu zona 8 Noyabr prospekti (Yeni Bulvar ərazisi daxil olmaqla), şərq istiqamətində Mərkəzi Bulvar küçəsi ilə kəsişməyədək, Mərkəzi Bulvar küçəsinin 2-ci Şərq küçəsinin kəsişməsinədək, həmin kəsişmədən 2-ci Şərq küçəsinin 6-cı Park küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Babək prospektinə, Babək prospektindən qərb istiqamətində Yusif Səfərov küçəsinin Heydər Əliyev prospekti ilə qovuşma yerinədək, şimal-şərq istiqamətində Heydər Əliyev prospektinin Həsənoğlu küçəsi ilə kəsişməsinədək,

şimal-qərb istiqamətində Həsənoğlu küçəsinin Təbriz küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Təbriz küçəsinin Faiq Yusifov küçəsi ilə kəsişməsinədək, sonra isə geriyə Təbriz küçəsinin Aşıq Molla Cümə küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Aşıq Molla Cümə küçəsinin Həsən Əliyev küçəsi ilə kəsişməsinədək (həmin hissə istisna olmaqla), həmin kəsişmədən qərb istiqamətində Həsən Əliyev küçəsinin Tbilisi prospekti ilə kəsişməsinədək (həmin hissə istisna olmaqla), həmin kəsişmədən cənub istiqamətində İzmir küçəsi, daha sonra İnşaatçılar prospekti ilə davam edərək İnşaatçılar prospektinin Əbdürrəhim bəy Haqverdiyev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Əbdürrəhim bəy Haqverdiyev küçəsinin Həsən bəy Zərdabi küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Həsən bəy Zərdabi küçəsinin Əbdülvahab Salamzadə küçəsi ilə kəsişməsinədək, həmin kəsiş-mədən Əbdülvahab Salamzadə küçəsinin Tbilisi prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən geriyə Əbdülvahab Salamzadə küçəsinin Həsən bəy Zərdabi küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Həsən bəy Zərdabi küçəsi ilə şimal istiqamətində 20 Yanvar dairəsinədək, 20 Yanvar dairəsindən şimal-şərq istiqamətində Rövşən Cəfərov küçəsinin Alı Mustafayev küçəsi ilə kəsişməsinədək (3-cü mikrorayon dairəsi daxil olmaqla), həmin kəsişmədən Alı Mustafayev küçəsinin Rəşid Məmmədov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Alı Mustafayev küçəsinin Seyid Cəfər Pişəvəri küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Seyid Cəfər Pişəvəri küçəsi, daha sonra Cavad xan küçəsi ilə Cavad xan küçəsinin Hüseyn Seyidzadə küçəsi ilə kəsişməsinədək (4-cü mikrorayon dairəsi istisna olmaqla), həmin kəsişmədən Cavad xan küçəsi, daha sonra Seyid Cəfər Pişəvəri küçəsi ilə Seyid Cəfər Pişəvəri küçəsinin Rövşən Cəfərov küçəsi ilə kəsişməsinədək, həmin kəsişməsindən cənub-qərb istiqamətində Moskva prospektinədək, həmin kəsişmədən şimal istiqamətində Moskva prospekti ilə Rəşid İsmayılov küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Rəşid İsmayılov küçəsi ilə (Biləcəri dairəsi də daxil olmaqla) Rəşid İsmayılov küçəsinin Rəşid İsmayılov 1-ci döngə küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Moskva prospekti ilə Müzəffər Həsənov küçəsinin kəsişməsinədək, Müzəffər Həsənov küçəsi ilə qərb istiqamətində küçənin sonunadək, Müzəffər Həsənov küçəsi ilə Abbas Mirzə Şərifzadə küçəsinin kəsişməsindən cənub istiqamətində Abbas Mirzə Şərifzadə küçəsinin Əsəd Əhmədov küçəsi ilə kəsişməsinədək,

həmin kəsişmədən Əsəd Əhmədov küçəsinin Xıdır Mustafayev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində birinci döngədən qərb istiqamətində Mirzə Cabbar Məmmədzadə küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən Mirzə Cabbar Məmmədzadə küçəsinin Kamal Rəhimov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Vasif Əliyev küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən Vasif Əliyev küçəsinin Kamal Rəhimov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində davam edib Akim Abbasov küçəsinin 23-cü girişindən cənub istiqamətində Mirzə Cabbar Məmmədzadə küçəsi ilə davam edib Mirzə Cabbar Məmmədzadə küçəsinin 166C girişindən Vasif Əliyev küçəsi istiqamətində, daha sonra Vasif Əliyev küçəsi ilə davam edərək, Vasif Əliyev küçəsinin İsfəndiyar Zülalov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən İsfəndiyar Zülalov küçəsinin Abbas Mirzə Şərifzadə küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Abbas Mirzə Şərifzadə küçəsinin Mətbuat prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Mətbuat prospektinin Mikayıl Müşfiq küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Mikayıl Müşfiq küçəsinin Parlament prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqmətində Parlament prospekti ilə Mehdi Hüseyn küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Mehdi Hüseyn küçəsinin Niyazi küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Niyazi küçəsinin İstiqlaliyyət küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində İstiqlaliyyət küçəsinin Azərbaycan prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Azərbaycan prospekti ilə Mirzəağa Əliyev küçəsinin kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Mirzəağa Əliyev küçəsinin Abdulla Şaiq küçəsi ilə kəsişməsinədək daha sonra Füzuli küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən şərq istiqamətində Füzuli küçəsi ilə Azadlıq prospektinin kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Azadlıq prospekti ilə Dilarə Əliyeva küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Dilarə Əliyeva küçəsi ilə Kövkəb Səfərəliyeva küçəsinin kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Kövkəb Səfərəliyeva küçəsi ilə 28 May küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində 28 May küçəsi ilə davam edib Mehdi Mehdizadə küçəsinin Yusif Səfərov küçəsi ilə kəsişməsinədək və həmin kəsişmədən cənub istiqamətində Yusif Səfərov küçəsinin 8 Noyabr prospekti ilə kəsişməsinədək olan ərazini (1.1-ci bənd ilə müəyyən edilmiş ərazilər istisna olmaqla) əhatə edir.

1.2.2. Bu zona, həmçinin Binəqədi şosesinin Cəfər Xəndan küçəsi ilə kəsişməsindən şimal istiqamətində Süleyman Sani Axundov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Süleyman Sani Axundov küçəsinin Şövkət Məmmədova küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Şövkət Məmmədova küçəsinin Cəfər Xəndan küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub-qərb istiqamətində Binəqədi şosesi ilə Cəfər Xəndan küçəsinin kəsişməsinədək olan ərazini əhatə edir.

1.2.3. Bu zona, həmçinin Qara Qarayev prospektinin Ziya Bünyadov prospekti ilə birləşmə hissəsindən başlayaraq cənub-şərq istiqamətində Babək prospekti ilə kəsişməyədək (paralel olan Kamil Balakişiyev küçəsi ilə Tofiq Abbasov küçəsi, Kamil Balakişiyev küçəsi ilə Musa Əliyev küçəsi aralığında olan ərazilər də daxil olmaqla), həmin kəsişmədən cənub istiqamətində Ukrayna dairəsinədək (paralel olan Maarif küçəsi ilə Qaçaq Nəbi küçəsi aralığında olan hissələr də daxil olmaqla) olan ərazini əhatə edir.

## 1.3. II zona

Bu zona 6-cı Park küçəsi ilə Babək prospektinin kəsişməsindən şərq istiqamətində Babək prospektinin Qara Qarayev prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində Qara Qarayev prospekti ilə Qara Qarayev prospektinin Heydər Əliyev prospekti ilə kəsişməsinədək, Alov parkının ətrafı, qərb istiqamətində Qara Qarayev prospektinin Heydər Əliyev prospekti ilə kəsişməsindən Heydər Əliyev prospektinin Əliyar Əliyev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində Əliyar Əliyev küçəsinin Ziya Bünyadov prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Əhməd Rəcəbli küçəsinin Süleyman Sani Axundov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Bakı-Qars küçəsi ilə davam edərək Abay küçəsi ilə kəsişmədən cənub-qərb istiqamətində Süleyman Sani Axundov küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən cənub istiqamətində Şövkət Məmmədova küçəsi ilə Cəfər Xandan küçəsinin kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Cəfər Xandan küçəsi ilə Binəqədi şosesinin kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Binəqədi şosesi ilə Məsud Davudoğlu küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində Məsud Davudoğlu küçəsi ilə Mirzə Məhəmməd xan küçəsinin

kəsişməsinədək, daha sonra həmin kəsişmədən şimal istiqamətində İbrahim Sadıqlı küçəsi ilə birbaşa Həmzə Babaşov küçəsinədək, daha sonra Həmzə Babaşov küçəsinin Adil Məmmədov küçəsi ilə kəsişməsindən Adil Məmmədov küçəsinin Maralgöl küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Mir Cəlal küçəsi ilə kəsişmə-yədək, həmin kəsişmədən cənub-şərq istiqamətində Moskva prospekti ilə kəsişməyədək, həmin kəsişmədən cənub istiqamətində Moskva prospektinin Rövşən Cəfərov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Rövşən Cəfərov küçəsinin Seyid Cəfər Pişəvəri küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Cavad xan küçəsinin Hüseyn Seyidzadə küçəsi ilə kəsişməsinədək (4-cü mikrorayon dairəsi daxil olmaqla), həmin kəsişmədən Cavad xan və Seyid Cəfər Pişəvəri küçələri ilə geriyə Alı Mustafayev küçəsi ilə Seyid Cəfər Pişəvəri küçəsinin kəsişməsinədək, həmin kəsişmədən Alı Mustafayev küçəsinin Rəşid Məmmədov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub-qərb istiqamətində Tbilisi prospektinin Rövşən Cəfərov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Həsən bəy Zərdabi küçəsi ilə Əbdülvahab Salamzadə küçəsinin kəsişməsinədək, həmin kəsişmədən Əbdülvahab Salamzadə küçəsinin Tbilisi prospekti ilə kəsişməsinədək və geriyə Əbdülvahab Salamzadə küçəsinin Həsən bəy Zərdabi küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Həsən bəy Zərdabi küçəsi ilə Əbdürrəhim bəy Haqverdiyev küçəsinin kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Əbdürrəhim bəy Haqverdiyev küçəsi ilə İnşaatçılar prospektinin kəsişməsinədək, həmin kəsişmədən şimal-şərq istiqamətində İnşaatçılar prospektinin İzmir küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən İzmir küçəsinin Tbilisi prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində Tbilisi prospektinin Həsən Əliyev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Həsən Əliyev küçəsinin Aşıq Molla Cümə küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub-qərb istiqamətində Aşıq Molla Cümə küçəsinin Təbriz küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-şərq istiqamətində Təbriz küçəsinin Faiq Yusifov küçəsi ilə kəsişməsinədək və geriyə Təbriz küçəsinin Həsənoğlu küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub-şərq istiqamətində Həsənoğlu küçəsi ilə Heydər Əliyev prospektinin kəsişməsinədək, həmin kəsişmədən cənub-qərb istiqamətində Heydər Əliyev prospektinin Babək prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən Babək prospekti ilə 6-cı Park küçəsinin

kəsişməsinədək olan ərazini (1.2-ci bənd ilə müəyyən edilmiş ərazilər istisna olmaqla) əhatə edir.

## 1.4. III zona

1.4.1. Bu zona Moskva prospektinin Dairəvi küçəsi ilə kəsişməsindən cənub-şərq istiqamətində Moskva prospekti ilə Müzəffər Həsənov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Müzəffər Həsənov küçəsinin sonunadək və geriyə Abbas Mirzə Şərifzadə küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən cənub istiqamətində Abbas Mirzə Şərifzadə küçəsinin Əsəd Əhmədov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Əsəd Əhmədov, daha sonra Arif Mehdiyev küçələri ilə davam edərək Dairəvi küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən şimal-şərq istiqamətində Dairəvi küçəsinin Moskva prospekti ilə kəsişməsinədək olan ərazini əhatə edir.

1.4.2. Bu zona, həmçinin Heydər Əliyev prospektinin Bəşir Bünyadov küçəsi ilə kəsişməsindən şərq istiqamətində Bəşir Bünyadov küçəsinin Elşən Mehdiyev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən Elşən Mehdiyev küçəsi ilə Yavər Əliyev küçəsinin kəsişməsinədək, həmin kəsişmədən Yavər Əliyev küçəsinin Nazim İsmayılov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub-şərq istiqamətində Nazim İsmayılov küçəsi ilə Şamil Kamilov küçəsinin kəsişməsinədək, həmin kəsişmədən qərb istiqamətində Şamil Kamilov küçəsi ilə Sakit Qocayev küçəsinin kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Əhməd Mehbalıyev küçəsi ilə davam edərək Etibar Bəkirli küçəsi ilə kəsişməyədək, həmin kəsişmədən şərq istiqamətində Etibar Bəkirli küçəsinin İlqar Musayev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində Abbas Fətullayev küçəsi ilə davam edərək İnqilab İsmayılov küçəsinin kəsişməsinədək, həmin kəsişmədən cənub istiqamətində İnqilab İsmayılov küçəsinin Zığ şosesi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində 8 Noyabr prospektinin Ramiz Quliyev küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-şərq istiqamətində Ramiz Quliyev küçəsinin Xudu Məmmədov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Xudu Məmmədov küçəsinin Rahib Məmmədov küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şimal istiqamətində Rahib Məmmədov küçəsinin Aşıq Ələsgər küçəsi ilə kəsişməsinədək, həmin kəsişmədən şərq istiqamətində Ukrayna dairəsinədək (Ukrayna dairəsinin ətrafı daxil

olmaqla), daha sonra şimal istiqamətində Məhəmməd Hadi küçəsinin Neapol küçəsi ilə kəsişməsindən Məhəmməd Hadi küçəsinin Babək prospekti ilə kəsişməsinədək, həmin kəsişmədən şimal-qərb istiqamətində Qara Qarayev prospektinin Heydər Əliyev prospekti ilə kəsişməsinədək (1.2.1-ci və 1.2.3-cü yarımbəndlər ilə müəyyən edilmiş ərazilər istisna olmaqla) əhatə edir.

### 1.5. IV zona

Bu zona digər zonaların sərhədləri ilə əhatə olunmayan əraziləri əhatə edir.

## 2. Sumqayıt şəhəri üzrə zonalar

### 2.1. Mərkəz zonası

Bu zona Səməd Vurğun küçəsindən Heydər Əliyev prospekti, qərb-şərq istiqamətində Ağa Quliyev küçəsinədək, Səməd Vurğun küçəsinin Pərviz Hüseynov küçəsi ilə kəsişməsindən şimal-şərq istiqamətində Heydər Əliyev prospektinədək, Zülfü Hacıyev küçəsi ilə Cəlil Məmmədquluzadə küçəsindən cənub-şərq istiqamətində Hacı Baba Salayev küçəsinədək, Polad Həşimov küçəsinin kəsişməsindən Nəriman Nərimanov küçəsi üzrə cənub-şərq istiqamətindən Sülh küçəsinədək, Səməd Vurğun küçəsinin 20 Yanvar küçəsi ilə kəsişməsindən qərb istiqamətində Bakı küçəsinədək olan ərazini əhatə edir.

### 2.2. I zona

Bu zona Cəlil Məmmədquluzadə küçəsi ilə Səməd Vurğun küçəsinin kəsişməsindən qərb istiqamətinə Nəriman Nərimanov küçəsinədək, Nəriman Nərimanov küçəsindən şimal istiqamətində Cəfər Cabbarlı küçəsinədək, “Yeni Bulvar” yeni yol sahəsinin cənub-şərq istiqamətindən Cəlil Məmmədquluzadə küçəsinədək, Çerkassi küçəsi ilə Sülh küçəsinin kəsişməsindən cənub istiqamətində Üzeyir Hacıbəyli küçəsinədək, Zülfü Hacıyev küçəsinin Üzeyir Hacıbəyli küçəsi ilə kəsişməsindən qərb istiqamətində (Dəmiryol Vağzalınadək), Bakı küçəsinin 20 Yanvar küçəsi ilə kəsişməsindən cənub-şərq istiqamətində Sülh küçəsinədək, Zəminə Həsənova küçəsi ilə Heydər Əliyev prospektindən cənub-qərb istiqamətində Bakı küçəsinədək, Koroğlu küçəsi ilə Zəminə Həsənova küçəsindən cənub-

şərq istiqamətində Mirzə Ələkbər Sabir küçəsinədək, Şəmsi Bədəlbəyli küçəsi ilə Zülfü Hacıyev küçəsindən hər iki tərəfdə cənub-qərb istiqamətində Bakı küçəsinədək, Üzeyir Hacıbəyli küçəsinin Niyazi küçəsi ilə kəsişməsindən cənub istiqamətində Babək küçəsinədək, Babək küçəsinin Üzeyir Hacıbəyli küçəsindən şərq istiqamətində İsmət Qayıbov küçəsi də daxil olmaqla Kamal Axundov küçəsinin kəsişməsinədək, Niyazi küçəsi ilə İsmət Qayıbov küçəsindən cənub istiqamətində Koroğlu küçəsinədək, Koroğlu küçəsindən şərq istiqamətində General Məhəmməd Əsədov küçəsi daxil olmaqla hər iki tərəfində Kamal Axundov küçəsinədək olan əraziləri əhatə edir.

### 2.3. II zona

Bu zona digər zonaların sərhədləri ilə əhatə olunmayan əraziləri əhatə edir.

## Gəncə şəhəri üzrə zonalar

### 3.1. Mərkəz zonası

Bu zona Pərviz Səmədov küçəsi istiqamətində həmin küçənin Təbriz küçəsi ilə kəsişməsinədək, Təbriz küçəsi istiqamətində Ozan küçəsi ilə Mirzə Abbas Abbaszadə küçələrinin kəsişməsinədək, Mirzə Abbas Abbaszadə küçəsi istiqamətində Nəriman Nərimanov prospekti ilə kəsişməyədək, Nəriman Nərimanov prospekti istiqamətində həmin prospektin Nizami Gəncəvi prospekti ilə kəsişməsinədək, Nizami Gəncəvi prospektindən Heydər Əliyev prospekti ilə kəsişməyədək, Heydər Əliyev prospekti istiqamətində Ruzigar Qasımov küçəsi ilə kəsişməyədək, Ruzigar Qasımov küçəsi istiqamətində Atatürk prospekti ilə kəsişməyədək, Atatürk prospekti istiqamətində Nizami Gəncəvi prospekti ilə kəsişməyədək, Nizami Gəncəvi prospekti istiqamətində Şəddadilər küçəsi ilə kəsişməyədək olan ərazini əhatə edir.

### 3.2. I zona

Bu zona Şah İsmayıl Xətai prospekti ilə Nizami Gəncəvi prospektinin kəsişməsindən Şah İsmayıl Xətai prospekti istiqamətində Məhsəti Gəncəvi prospekti ilə kəsişməyədək, Məhsəti Gəncəvi prospekti istiqamətində Nizami Gəncəvi prospekti ilə kəsişməyədək, Nizami Gəncəvi prospekti istiqamətində 28 May küçəsi ilə kəsişməyədək, 28 May küçəsi istiqamətində Təbriz küçəsi ilə

kəsişməyədək, Təbriz küçəsi ilə Bağmanlar küçəsinin kəsişməsindən həmin küçənin İsmət Qayıbov küçəsi ilə kəsişməsinədək, İsmət Qayıbov küçəsi istiqamətində Fətulla Həsənov küçəsi ilə kəsişməyədək, Fətulla Həsənov küçəsi istiqamətində Bəxtiyar Əliyev küçəsi ilə kəsişməyədək, Bəxtiyar Əliyev küçəsi istiqamətində Əziz Əliyev prospekti ilə kəsişməyədək, Əziz Əliyev prospekti istiqamətində Nizami Gəncəvi prospekti ilə kəsişməyədək olan ərazini əhatə edir.

## 3.3. II zona

Bu zona digər zonaların sərhədləri ilə əhatə olunmayan əraziləri əhatə edir.